# “İMADƏDDİN NƏSİMİ VƏ FOLKLOR” adlı Respublika elmi-ptaktik konfransı

**(Bakı şəhəri, noyabr, 2019-cu il)**

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2019-cu il dördüncü qrant müsabiqəsində ”Folklorun və Ədəbiyyatın İnkişafına Yardım” İctimai Birliyinin ”İmadəddin Nəsimi və folklor” adlı Respublika elmi-ptaktik konfransının keçirilməsi” layihəsi qalib gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 15 noyabr 2018-ci il tarixində Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, böyük şair İmadəddin Nəsiminin 2019-cu ildə anadan olmasının 650 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması və 11 yanvar 2019-cu il tarixində isə 2019-cu ilin Azərbaycan Respublikasında ”Nəsimi ili” elan edilməsi haqqında Sərəncamlar imzalamışdır. Bu Sərəncamlara əsasən ölkə miqyasında mühüm tədbirlər həyata keçirilməkdədir. ”İmadəddin Nəsimi və folklor” konfransı da bu tədbirlərin davamı sayıla bilər. Konfransın keçirilməsində əsas məqsəd şairin hər zaman diqqət mərkəzində olan yaradıcılığının folklor qaynaqlarını araşdırmaqdır.

Yalnız Azərbaycanda deyil, eyni zamanda Şərq və dünya ədəbiyyatında öz dəsti-xətti ilə seçilən İmadəddin Nəsimi yaradıcılığı hər zaman diqqət mərkəzində olmuşdur. O, şair olmaqla yanaşı, həm də dövrünün mütəfəkkiri idi. Nəsiminin şeirləri hələ sağlığında ikən Azərbaycandan qıraqda da geniş yayılmışdır. Ona görə də şair yalnız Azərbaycan ədəbiyyatının deyil, bütün türk ədəbiyyatının inkişafına güclü təsir göstərmişdir. Nəsiminin əsərləri əlyazmalar şəklində dünyanın bir sıra kitabxanalarında saxlanılır. Şairin əsərləri dəfələrlə çap edilmiş, yaradıcılığı tədqiqat obyekti olmuşdur. 2017-ci ilin may ayında Parisdə UNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir.

Sizi dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar təşkil etdiyimiz ”İmadəddin Nəsimi və folklor” adlı Respublika elmi-praktik konfransında şairin yaradıcılığında folklorizm və mifologizmlərlə bağlı məruzələrlə iştiraka dəvət edirik.

Konfransın mövzusundan kənar məruzələr qəbul edilməyəcəkdir.

Sizə uğurlar arzulayırıq.

**KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ**

Elmi heyət:
**AMEA-nın müxbir üzvü, prof. Kamran Əliyev**
**Fil.e.d, prof. Səhər Orucova**
**Fil.e.d, prof. Mahmud Allahmanlı**
**Fil.e.d. İslam Sadıq**
**Fil.ü.f.d., dos. Fidan Qasımova**
**Fil.ü.f.d. Aytac Abbasova**
**Fil.ü.f.d. Gülnar Osmanova**

Katiblik:
**Fil.ü.f.d. Aytac Abbasova**

**MÜHÜM TARİXLƏR:**

- *Konfransda iştirak etmək istəyənlər məruzələrini 25 sentyabr 2019-cu il tarixinədək nesimi.imaded-din.2019@mail.ru elektron poçt ünvanına göndərə bilərlər.*
- Məruzələrin qəbul edilib-edilmədiyi haqqında müəlliflərə sentyabr ayının sonunadək elektron poçt ünvanı vasitəsi ilə məlumat veriləcəkdir.
- Konfrans 2019-cu ilin noyabr ayında gerçəkləşdiriləcəkdir.

**MƏRUZƏLƏRİN YAZI QAYDALARI:**

- *Məruzələr e-mail vasitəsilə göndərilməlidir.*
- *Məqalə başlığı öncə Azərbaycan türkcəsində, sonra rus və ingilis dillərində verilməlidir.*
- *Başlıqdan sonra sağ tərəfdən müəllifin adı, soyadı, elmi dərəcəsi və email ünvanı verilməlidir.*
- *Daha sonra üç dildə (öncə Azərbaycan, sonra rus, daha sonra ingilis) özət və ardınca əsas mətn verilməlidir.*
- *Yazı: Microsoft Office Word, Kağız: A4.*
- *Səhifə qaydası: Üst: 2,5, Alt: 2,5, Sağ: 2,5, Sol: 2,5*
- *Yazı puntu: Başlıq 12 şrift ölçüdə, yağlı.*
- *Məruzə: 12 şrift ölçüdə.*
- *İnterval: 1,5.*
- *Məruzə mətnləri 8-10 səhifə həcmində olmalıdır.*

İstifadə edilmiş ədəbiyyat siyahısı məruzənin sonunda **”Qaynaqlar”** yarımbaşlığı altında yazılmalıdır. Ədəbiyyat siyahısı müəlliflərin soyadlarına uyğun olaraq əlifba sırası ilə düzülməli, sıra nömrəsi göstərilməlidir. Məruzədə istifadə edilməyən ədəbiyyat qaynaqlarda göstərilməməlidir. Əgər məruzəçi arxiv sənədlərindən, dissertasiyalardan, əlyazma hüququnda olan materiallardan istifadə etmişsə, onlar da ”Qaynaqlarda” göstərilən qaydada yazılmalıdır.

- *Məruzədə ətək yazısı (snoska) olduqda internet saytında yerləşdirilərkən problemlər yaradır. Buna görə də ətək yazısı (snoska) ilə olan məruzələr qəbul edilmir. Məruzə daxilində qaynaqlar kodlaşdırılmış qayda ilə verilməlidir.*
- *Hər bir məruzəçi üçün maksimum 15 dəqiqə vaxt ayrılacaqdır. İclaslarının sonunda müzakirələr keçiriləcəkdir.*
- *Elektron poçt ünvanı ilə göndərilməyən və elanda göstərilmiş qaydalar əsasında təqdim edilməyən məruzələr qəbul edilməyəcəkdir.*
- *Konfransda iştirak etmək üçün ödəniş tələb edilmir.*
- *Konfransda iştirak etmək istəyənlərin yol və otel xərcləri özlərinə aiddir.*
- *Konfrans materialları kitab şəklində çap ediləcəkdir.*